# "Tufandağ"da yeni xizəkçilik mövsümü

*"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində yeni mövsüm üçün bir sıra yeniliklərin həyata keçirməsinə başlanılmışdır. Belə ki, bu il P8 adlı xizək yolu ilk dəfə turistlərin ixtiyarına verilib. Mövsümün həyəcanını yaşamaq istəyən qonaqlara kanatla 4 istiqamətdə dağ gəzintisi təşkil olunur.*

Dəniz səviyyəsindən 1920 metr hündürlükdə, gözəl dağ mənzərələrindən zövq almaq istəyənlər üçün burada hər cür şəraitə malik restoranlar və beşulduzlu "Tufandağ" oteli fəaliyyət göstərir. Bütün dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi nəzərdə tutulub. Kompleksdə 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu 17 kilometrdir.

"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinin xidmətlərindən ötən üç il ərzində 300 mindən çox yerli və xarici qonaq istifadə edib. Hazırda kompleksin ərazisi qalın qar örtüyü ilə əhatə olunub və xizəkçilik üçün əlverişli şərait mövcuddur. Qış turizminin inkişafına təkan verən bu kompleksə mövsümün qalan günləri ərzində Bakıdan, respublikanın müxtəlif şəhər və rayonlarından, xarici ölkələrdən 20 minə yaxın xizək həvəskarının gələcəyi gözlənilir.



Hazırda müxtəlif turizm şirkətləri tərəfindən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə xizəkçiliklə əlaqədar xüsusi turlar təşkil edilir. Böyüklərin və uşaqların istirahəti üçün hər cür şəraiti olan kompleksdə turistlər əvvəlcə kanat yolu ilə qarla örtülmüş uca dağların zirvəsinə qalxır, oradan Qəbələ şəhərini, Duruca kəndini və ətrafdakı gözəl təbiət mənzərələrini seyr edirlər.

**"Qəbələ".**

# Dörd minə yaxın turist gəlib

*Qəbələ müasir turizm infrastrukturuna görə nəinki isti yay fəslində, hətta soyuq qış aylarında da cəlbedicidir.*

*Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bu il ölkəmizdə 5 gün davam edən bayram və qeyri-iş günlərində Qəbələyə gələn yerli və xarici turistlərin sayı ötən ildəkindən 2 dəfə çox olub. Onlar dağlarda motorlu xizəklərlə, at və faytonlarla gəzmiş, kanatla dağları seyr etmiş, buz üstündə xizək sürmüşlər. Bütün otellər, istirahət və əyləncə mərkəzləri turistlərlə dolu olub.*

Qonaqların istirahəti üçün otellərdə, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzində yüksək şərait yaradılıb, tanınmış musiqiçilərin iştirakı ilə konsertlər, müxtəlif əyləncəli tədbirlər təşkil olunub. Turistlər Qəbələnin müasir şəhərsalma mədəniyyəti və ləziz mətbəxi ilə yaxından tanış olublar. Burada yerləşən 20 müasir otel və istirahət mərkəzləri bayram günlərində, ümumilikdə 4 minə yaxın yerli və xarici turistə xidmət göstərib. Qəbələyə üz tutan turistlər təkcə rayon mərkəzini gəzməklə kifayətlənməyib, həm də dağlardakı ucqar kəndlərə gedərək mənzərəli yerlərlə tanış olublar.

Yeni ili Qəbələdə qarşılayan xarici turistlər arasında Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Səudiyyə Ərəbistanı, İraq, Qətər, Hindistan, Rusiya və Pakistandan gələnlər daha çox olub. Rayona gələn əcnəbi turistlər arasında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli artım müşahidə edilib.





Əvvəlki illərdə Qəbələyə gələn əcnəbi turistlər arasında Rusiya və Avropa ölkələrinin vətəndaşları üstünlük təşkil edirdi. 2016-cı ildə isə ərəb ölkələrindən Qəbələyə 20 minə yaxın turist gəlib. Turistlərin istirahəti üçün Qəbələdə bütün imkanlar mövcuddur. Hazırda rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyətdədir. Həmin obyektlərdən 20-si beş, dörd və üçulduzlu otellər və müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 2500 qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür. Ötən il ərzində Qəbələ rayonuna gələn turistlərin sayı 99 min 700 nəfər olub ki, bunun da 32 min 600 nəfəri xarici turistlərdir.

**«Qəbələ».**

# Nic qəsəbəsində Milad bayramı qeyd olunub

*Bütün xristian aləmində olduğu kimi, Nic qəsəbəsində yaşayan udilər də yanvarın 7-də "Cotari" alban kilsəsində təşkil olunan bayram mərasiminə toplaşıblar. Tədbirdə Alban-Udi Dini İcmasının rəhbəri, kilsənin keşişi və icmanın üzvləri çıxış edərək "Milad" bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin onlara olan diqqət və qayğısından danışıblar. Həmçinin, bayram münasibətilə təbriklər səsləndirilib.*



Udilər rayonda onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını, Nicdəki "Cotari" alban kilsəsinin əsaslı şəkildə bərpasını ölkədə tolerantlığa gözəl nümunə olduğunu qeyd ediblər. Məlumat verilib ki, Nic qəsəbəsində üç kilsə və iki məscid var. Altı min nəfər əhalisi olan Nic qəsəbəsində 3700 nəfər udi yaşayır. Udilər öz dilini, dinini və adət-ənənələrini əsrlər boyudur ki, qoruyub saxlayır. Qəsəbə məktəblərinin ibtidai siniflərində udi dili tədris olunur. Kilsədə dini ayinlər onların ana dilində icra edilir.

Tədbirdə qeyd olunub ki, keçmiş sovetlər dönəmində udilərə öz dini bayramlarını qeyd etmək qadağan edilib. Ancaq ölkəmiz müstəqillik əldə etdikdən sonra tolerantlığın kiçik bir modeli hesab olunan Nicdə onlar etnik xalq olaraq öz bayramalrını hər il qeyd ediblər.

Çıxışlardan sonra kilsədə şamlar yandırılıb, dualar oxunub, bayram süfrəsi açılıb.

**«Qəbələ».**

# Bayram tədbiri

30 dekabr 2016-cı il tarixdə Vəndam Qəsəbə Sənətkarlıq Evində Həmrəylik Günü münasibəti ilə bayram tədbiri keçirildi. Tədbiri sənətkarlıq evinin direktoru Azər Azayev açaraq tədbir iştirakçılarını həmrəylik günü və yeni il münasibəti ilə təbrik etdi. Tədbir iştirakçıları əvvəlcə sənətkarlıq evinin foyesində təşkil olunmuş rəsm dərnəyinin üzvlərinin əl işlərinə tamaşa etdilər.

Sonra musiqi sədaları altında bayram şənliyi başladı. Tədbirə Hacılalı Folklor Evinin direktoru Afət Əliyeva da öz kollektivi ilə qonaq gəlmişdi. Tədbirdə qəsəbə sakinlərindən Seyidağa Həmidov, Əmircan İsmayılov, Xalid Həlimov, Bilal Allahverdiyev və başqaları çıxış edərək yeni il təbrikləri söylədilər. Uşaqların yolka ətrafında söylədikləri şeirlər və ifa etdikləri rəqslər şənliyi daha da təravətləndirdi.

Tədbirdə Şaxta baba uşaqlara Yeni il hədiyyələri verdi.

**✍ Samir AZAYEV, Vəndam qəsəbəsi.**

# Qəbələ rayon prokurorluğu əməkdaşlarının 2017-ci il ərzində vətəndaşların yaşayış yerləri üzrə qəbulunun və hüquqi təbliğat işlərinin keçirilməsinə dair QRAFİKİ

| Sıra sayı | Qəbulun və hüquqi təbliğat işlərinin keçirildiyi yaşayış yeri və qəbula dəvət edilmiş vətəndaşların yaşayış məntəqələrinin adları | Qəbulun keçirildiyi tarix, vaxt və yer | İcraçı |
|---|---|---|---|
| 1. | Qəmərvan kəndində—Tikanlı, Abrıx, Qəmərvan kəndləri və Bum qəsəbəsi sakinləri | 24.01.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 2. | Vəndam qəsəbəsində—Nohurqışlaq, Bunud, Tüntül, Yengicə, Həzrə kəndləri və Vəndam qəsəbəsi sakinləri | 28.02.2017 qəsəbə məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 3. | İmamlı kəndində—İmamlı, Mirzəbəyli, Zərgərli, Daşca, Zarağan, Soltannuxa kənd sakinləri | 14.03.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 4. | Nic qəsəbəsində—Yemişanlı, Uludaş, Zərgərli və Nic qəsəbə sakinləri | 25.04.2017 qəsəbə məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 5. | Əmirvan kəndində—Məlikli, Bılıx, Sileyli, Yenikənd, Topbağ, Kiçik Əmili, Böyük Əmili, Əmirvan kənd sakinləri | 16.05.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 6. | Həmzəli kəndində—Xırxatala, Cığatelli, Həmzəli, Laza və Tikanlı kənd sakinləri | 13.06.2017 kənd məktəbi, saat $11^{00}$-da | Prokuror M. V. Orucov |
| 7. | Məmmədağalı kəndində—Seyidqışlaq, Məmmədağalı, Bunud, Həzrə kənd sakinləri | 25.07.2017 kənd məktəbi, saat $11^{00}$-da | Prokuror M. V. Orucov |
| 8. | Yemişanlı kəndində—Yemişanlı, Tikanlı, Abrıx, Kötüklü kəndləri və Nic qəsəbə sakinləri | 15.08.2017 kənd məktəbi, saat $11^{00}$-da | Prokuror M. V. Orucov |
| 9. | Uludaş kəndində—Uludaş, Zərgərli kənd sakinləri | 12.09.2017 kənd məktəbi, saat $11^{00}$-da | Prokuror M. V. Orucov |
| 10. | Tüntül kəndində—Nohurqışlaq, Tüntül, Yengicə kəndləri və Vəndam qəsəbəsi sakinləri | 24.10.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 11. | Mıxlıqovaq kəndində—Kötüklü, Mıxlıqovaq, Solquca kənd sakinləri | 28.11.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |
| 12. | Mirzəbəyli kəndində—Yeni Dizaxlı, Çuxur Qəbələ, Kiçik Pirəli, Böyük Pirəli, Mirzəbəyli kənd sakinləri | 19.12.2017 kənd məktəbi, saat $15^{00}$-da | Prokuror M. V. Orucov |